**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

№ 238 (1366) 24 dekabr - 26 dekabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ


# Bizim Tərtər - bizim səngər

**(əvvəli qəzetimizin ötən sayında)**

**Cəbhə bölgəsində yaşayan Tərtər sakinləri doğma yurdu mərdliklə qorumaqla yanaşı, böyük əzmlə qurub-yaradırlar. Təsadüfi deyil ki, ölkə başçısı İlham Əliyev bu ayın əvvəlində rayona səfər edərkən Tərtərdə görülən işləri müsbət qiymətləndirdi.**



**"Tərtər sakinləri qəhrəmandırlar. Onlar burada-döyüş bölgəsində, düşmənlə üz-üzə möhkəm dayanıblar və atılan, evlərinə dəyən mərmilər onların iradəsinə zərrə qədər də təsir etməyib".**

***İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti***

### *Tarladan xoş xəbər var*

Azərbaycanın kənd təsərrüfatı rayonlarından sayılan Tərtərdə bu sahənin inkişafına son illər xüsusi diqqət ayrılıb. Dövlət başçısının pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrası üçün ciddi addımlar atılır. Statistik göstəricilər, əldə edilən nəticələr sevinməyə əsas verir. Bu il Tərtər rayonu üzrə 1035 hektar sahədə pambıq əkilib. Bu, ötən illə müqayisədə 88, 2 faiz çoxdur. Rayon rəhbərliyi, yerli fermerlər və aqrar sahənin mütəxəssisləri Tərtərdə "ağ qızıl"a diqqətin artırılması üçün müəyyən addımlar atırlar. İlkin hesablamalara görə, qarşıdan gələn 2017-ci ildə rayonda əkin sahələrinin 3 min hektara çatdırmaq mümkün olacaq. Rayonda 2 hektarda şəkər çuğundurunun əkilməsi də nəzərdə tutulub.

Son illər diqqət yönələn sahələrdən biri də baramaçılıqdır. Gələn il üçün Tərtər rayonunda 3 ton baramanın istehsal olunması planlaşdırılıb, bunun üçün müəyyən işlər də görülüb. Artıq 120 mindən çox tingin əkininə başlanılıb.

Əvvəllər müxtəlif səbəblər üzündən istifadəsiz qalan 300 hektar sahədə isə zeytun, xurma, nar və badam bağlarının salınması qərara alınıb. Yola salmağa hazırlaşdığımız 2016-cı ildə dövlət fondu torpaqlarından 2279 hektar istifadə olunmayan və ya təyinatı üzrə əkilməyən sahə geri qaytarılıb. Həmin torpaqlarda da kənd təsərrüfatı məhsullarının əkilib-becərilməsi nəzərdə tutulub.



### *Bəsləsən atlas olar tut yarpağından...*

Ölkəmizdə baramaçılığın inkişaf etdirilməsi üçün müəyyən addımlar atılır. Prezident İlham Əliyevin bununla bağlı verdiyi sərəncam və tapşırıqlar Tərtər rayonunda da icra edilməyə başlanılıb. Rayonda yeni intensiv tut bağalarının salınması işi davam edir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində müəyyən uğurlar əldə olunub. Tut bağlarının salınması məqsədi ilə Cin Xalq Respublikasından Azərbaycana gətirilən tut tinglərinin 30 mini bölgü əsasında Tərtər rayonuna verilib.

Gətirilən tinglər rayonun Əskipara, Buruc, Yuxarı Qapanlı, İsmayılbəyli, Qaraağacı, İrəvanlı kəndləri ərazisində, eləcə də Tərtərdəki bölgə Təcrübə Stansiyasında əvvəlcədən nəzərdə tutulan sahələrdə əkilib. Çin Xalq Respublikasından dəvət edilən mütəxəssislər həmin sahələrə baş çəkərək vəziyyətlə yerində tanış olub, yerlin fermerlərə öz tövsiyələrini veriblər. Bundan başqa, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə Tərtər rayonunda 1357 ədəd tut tingi əkilib.

Dövlət başçısının da qeyd etdiyi kimi, baramaçılığın inkişaf etdirilməsi bu gün çox vacibdir, çünki bundan həm dövlət, həm də ayrı-ayrı insanlar böyük xeyir görə bilir. Mütəxəssislər də bildirir ki, qısa müddətdə, təxminən 30-40 gün ərzində yaxşı pul qazanmaq mümkündür.

Rayon sakinləri, fermerlər də bu məsələni diqqət mərkəzində saxlamağa çalışırlar. Bu il Tərtərdə 1 ton barama istehsal olunub, növbəti ildə isə 4 ton barama istehsal edilməsi qarşıya bir vəzifə kimi qoyulub. Rayon zəhmətkeşləri bu tapşırığın öhdəsindən gəlmək üçün bütün qüvvələri səfərbər ediblər.

Prezident İlham Əliyev Tərtərə səfəri zamanı Sarıcalı kəndində Tərtər çayı üzərində inşa edilmiş yeni körpünün açılışında da iştirak edib. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən, Bərdə-İstisu avtomobil yolunun 10-cu kilometrliyində inşa edilmiş körpünün Tərtər rayonu üçün strateji əhəmiyyəti var. Körpünün tikintisinə 2016-cı ilin iyununda başlanılıb və qısa müddətdə başa çatdırılıb.

Üçaşırımlı körpünün uzunluğu 107 metr, eni 12 metr, çay məcrasından hündürlüyü isə 15 metrdir. İkizolaqlı körpünün hərəkət hissəsinin eni 8,5 metrdir. Piyadaların körpüdə rahat və təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə hər bir istiqamət üzrə 1,75 metr enində səkilər də tikilib.

Layihə çərçivəsində 110 metr uzunluğunda beton mühafizə bəndi, 400 metr uzunluğunda yanaşma yolları və ümumi uzunluğu 56 metr olan beş dairəvi borunun tikintisi aparılıb. Sarıcalı və Zolgəran kəndləri arasında inşa edilən körpü 11 yaşayış məntəqəsinin 25,6 min sakininin mənzil başına rahat çatması üçün məsafəni qısaltmaqla avtonəqliyyat vasitələrinin hərəkətini xeyli yaxşılaşdıracaq.

Son illər rayonun təbii qazla təminatı məsələsinə də ciddi önəm verilir. "Azəriqaz" İstehsalat Birliyi və Tərtər Rayon İcra Hakimiyyəti bunun üçün müəyyən addımlar atırlar. Bu günlərdə Seydimli kəndi də təbii qazla təmin olunub. 2700 nəfərdən çox əhalisi olan Seydimlinin qazlaşdırılması üçün birpilləli sistemdən istifadə edilib, məhəllədaxili qaz xətləri çəkilib, 625 sayğac quraşdırılıb.

Qeyd edək ki, Tərtər rayonunun 51 yaşayış məntəqəsindən 43-ü artıq təbii qazla təmin olunub. Hazırda rayonun qaz olmayan digər kəndlərinə qaz çəkilişi ilə bağlı işlər görülür.

**Qarşıdan 2017-ci il gəlir, Tərtər sakinləri yeni ilə yeni ümidlərlə baxırlar.**

**Etibar CƏBRAYILOĞLU**